

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 111 (23.022)

*13 iyun 2018-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev TANAP layihəsinin açılış mərasimində iştirak etmək üçün iyunun 12-də Türkiyə Respublikasına səfərə gedib.

* * *

İyunun 12-də Türkiyənin Əskişəhər şəhərində TANAP layihəsinin açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə çıxış edib.

Dövlətimizin başçısı deyib ki, bu gün TANAP-ın istismara verilməsi Türkiyə-Azərbaycan qardaşlığının növbəti təzahürüdür. TANAP Türkiyə ilə Azərbaycanın növbəti zəfəridir. TANAP tarixi layihədir. Bu gün biz XXI əsrin enerji tarixini birlikdə yazırıq. Bu tarix işbirliyi tarixidir, bu tarix sabitlik tarixidir. Enerji layihələrimiz bölgəmizə sabitlik gətirir. Bu layihələrdə iştirak edən bütün ölkələr, bütün şirkətlər fayda görür, xalqlar fayda görür. TANAP kimi nəhəng layihənin həyata keçirilməsi Türkiyə-Azərbaycan liderlərinin birgə güclü siyasi iradəsi nəticəsində mümkün olmuşdur.

Daha sonra Şimali Kiprin lideri Mustafa Akıncı, Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç, Ukrayna Prezidenti Petro Poroşenko, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış ediblər.

Çıxışlardan sonra TANAP layihəsi işə salınıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyunun 12-də Əskişəhərdə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub.

* * *

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin Əskişəhər şəhərində Ukrayna Prezidenti Petro Poroşenko ilə görüşüb.

* * *

İyunun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin Əskişəhər şəhərində BP şirkətinin baş icraçı direktoru Robert Dadli ilə görüşüb.

## "Kəhrəba" Fermer Təsərrüfatında yerli toxum sortları yetişdirilir





Əkinçiliyin inkişafında başlıca şərtlərdən biri də elmi-təcrübi fəaliyyətin təkmilləşdirilməsi, maarifləndirmə işlərinə ciddi diqqət yetirilməsi, məhsuldar toxum sortlarından və mütərəqqi metodlardan istifadənin təşviqidir. Naxçıvan Muxtar Respublikasında bu amil diqqətdə saxlanılır. "Kəhrəba" Fermer Təsərrüfatının yaradılması da bu sahədə görülən işlərin davamıdır.

İyunun 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov "Kəhrəba" Fermer Təsərrüfatının əkin sahələrinə baxmışdır.

Məlumat verilmişdir ki, fəaliyyətini yerli və məhsuldar sortların qorunması, bərpası və yayılması istiqamətində quran "Kəhrəba" Fermer Təsərrüfatı üçün Babək rayonunun Şıxmahmud kəndində 26,2 hektar əkinəyararlı torpaq sahəsi ayrılmışdır. 2018-ci ilin məhsulu üçün təsərrüfatda 18,6 hektarda taxıl, 2,9 hektarda sarımsaq, 2,4 hektarda tütün, 2,3 hektarda isə kartof, bostan və tərəvəz bitkiləri əkilmişdir. Əkin zamanı yerli və rayonlaşdırılmış məhsuldar toxum sortlarından istifadə olunmuşdur. Aqrotexniki qaydalara düzgün əməl edilməsi məhsulun vegetasiya dövründə yaxşı inkişafına səbəb olmuşdur. Təsərrüfatda yetişdirilən yerli toxum sortları muxtar respublikanın torpaq mülkiyyətçilərinə və fermer təsərrüfatlarına paylanacaqdır.

Ali Məclisin Sədri fermer təsərrüfatının təcrübə və maarifləndirmə istiqamətində fəaliyyətinin gücləndirilməsi, növbəli əkin qaydalarına əməl olunması, təsərrüfatda əsasən bostan-tərəvəz və dənli-paxlalı bitkilərin əkininə üstünlük verilməsi, bu zaman mütərəqqi suvarma və əkin metodlarından istifadə olunması, muxtar respublikada ixtisaslaşdırılmış yerli toxum sortlarına olan tələbatın ödənilməsi barədə müvafiq tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "BİOWORKS" şirkətinin icraçı direktoru ilə görüşüb



İyunun 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Almaniyanın "BİOWORKS" şirkətinin icraçı direktoru Peter Kröner ilə görüşüb.

Ali Məclisin Sədri Naxçıvan şəhər Təmizləyici Qurğular Kompleksinin tikintisinin uğurla başa çatması münasibətilə "BİOWORKS" şirkətinin icraçı direktoru Peter Krönerə təşəkkür etmişdir. Naxçıvan şəhər Təmizləyici Qurğular Kompleksinin istifadəyə verilməsi nəticəsində 500 hektar torpaq sahəsinin su ilə təmin olunduğunu və "Araz" Su Anbarının çirklənməsinin qarşısının alındığını bildirən Ali Məclisin Sədri həmçinin layihənin yerli mütəxəssislərin hazırlanması işindəki əhəmiyyətini vurğuladı.

"BİOWORKS" şirkəti tərəfindən Şahbuz Təmizləyici Qurğusunun tikintisinin həyata keçirildiyini bildirən Ali Məclisin Sədri əməkdaşlıqdan razılığını ifadə etdi və şirkətin kollektivinə uğurlar arzuladı.

Peter Kröner fəaliyyətlərinə verdiyi yüksək qiymətə və layihənin icrası zamanı göstərilən dəstəyə görə Ali Məclisin Sədrinə minnətdarlığını bildirdi. Naxçıvan şəhər Təmizləyici Qurğular Kompleksinin texnoloji quruluşuna görə Avropada ikinci qurğu olduğunu bildirən qonaq Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksi ilə də tanış olduğunu, bu cür layihələrin icrasını və yerli mühəndislərin hazırlığını inkişafın nəticəsi kimi dəyərləndirdi.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## “Milli Qurtuluşdan intibaha” mövzusunda elmi-praktik konfrans keçirilib

***Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Heydər Əliyev Muzeyi ilə birlikdə Milli Qurtuluş Gününün 25-ci ildönümü münasibətilə “Milli Qurtuluşdan intibaha” mövzusunda elmi-praktik konfrans keçirib.***



Konfransda Heydər Əliyev Muzeyinin direktoru, Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədr müavini Ramil Orucəliyev “Ulu öndər Heydər Əliyevin həyatı və siyasi fəaliyyətinin Naxçıvan mərhələsi” mövzusunda çıxış edərək bildirib ki, 1990-cı ilin iyul ayında Moskvadan Naxçıvana qayıdan ümummilli liderimiz həmin ilin sentyabr ayında keçirilən seçkilərdə respublika və muxtar respublika parlamentlərinə deputat seçildi. Noyabrın 17-də Naxçıvan Muxtar Respublika Ali Məclisinin Onun sədrliyi ilə keçirilən ilk sessiyasında muxtar respublikanın adından “sovet sosialist” sözləri çıxarıldı, muxtar respublika Ali Sovetinin adı dəyişdirilərək Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırıldı, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli dövlət bayrağı muxtariyyətin Dövlət bayrağı kimi qəbul edildi. 1991-ci il sentyabrın 3-də dahi şəxsiyyətin Naxçıvan Muxtar Respublikası Ali Məclisinə Sədr seçilməsi müstəqil dövlətçilik tariximizdə böyük hadisə oldu.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının Şura üzvü Könül Mirzəyeva “Heydər Əliyev siyasətinə sədaqətin nümunəsi: XXI əsrin Naxçıvanı” mövzusunda çıxışında qeyd edib ki, XXI əsrin Naxçıvanında sosial-iqtisadi və elmi-mədəni inkişaf dahi şəxsiyyətin müəyyənləşdirdiyi yüksəliş strategiyası əsasında uğurla davam etdirilir. Məhz bunun nəticəsində Naxçıvan Muxtar Respublikası ötən dövrdə özünün bütün tarixi boyu ən möhtəşəm quruculuq salnaməsini yaradıb. Bu inkişafın nəticəsi kimi, sədri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev olan “Caspian European Club”ın hazırladığı Azərbaycanın iqtisadi regionlarının 2017-ci il üçün illik investisiya reytinqinin lideri Naxçıvan Muxtar Respublikası olub.

Heydər Əliyev Muzeyinin əməkdaşı Elvira Əzizova “Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin memarıdır” mövzusunda çıxışında ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin hər iki dövründə ölkəmizin böyük sürətlə inkişaf etdiyini bildirib. “Milli Qurtuluşdan intibaha” mövzusunda çıxış edən Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, dosent Elman Cəfərli deyib ki, ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətinin əbədiliyinin təmin edilməsindəki ən böyük xidmətlərindən biri də müstəqil dövlətçiliyin siyasi varislik, yaradıcı təkamül prinsipi ilə inkişaf konsepsiyasının hazırlanması və həyata keçirilməsi olub. Nəticədə, dahi şəxsiyyətin əsasını qoyduğu bütün sosial-iqtisadi layihələr və siyasi konsepsiya son 15 ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ardıcıl şəkildə həyata keçirilib. Ölkədə ictimai-siyasi sabitlik daha da möhkəmləndirilib, Azərbaycanın beynəlxalq aləmdə nüfuzu durmadan artıb.

Sonda ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən film nümayiş etdirilib, konfrans iştirakçıları Heydər Əliyev Muzeyinin ekspozisiyasına baxıblar.

✍ **Ramiyyə ƏKBƏROVA**

*Mədəniyyətlər tarixən dünya ölkələri və xalqları arasında müəyyən münasibətlərin və əlaqələrin qurulmasında mühüm rol oynayıb. Müxtəlif xüsusiyyət və dəyərlər toplusunu özündə cəmləşdirən mədəniyyətlər ayrılıqda fərqli cəmiyyətlərin dünyaya baxışını formalaşdırır. Məhz mədəniyyətlərarası transformasiyada zəngin dəyərləri ilə fərqlənən, maddi və mənəvi sərvətləri ilə digər mədəniyyətlərə təsir edən xalqlar daha mədəni xalqlar hesab olunur. Ulu öndər Heydər Əliyevin dediyi kimi:* ***“Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir”.*** *Azərbaycan xalqı da özünün zəngin mədəniyyət tarixini yaratmış, ölkəmiz Avropa ilə Asiyanın qovşağında yerləşdiyi üçün milli mədəniyyətimiz hər iki qütbün məxsusi elementlərini özündə birləşdirməyi bacarmışdır.*

### Naxçıvan: İslam Mədəniyyətinin Paytaxtı – 2018

## İslam Mədəniyyətinin Paytaxtı qədim Naxçıvan islami və bəşəri dəyərlərin qorunduğu müqəddəs məkan kimi tarixə düşəcək



İndi elə bir xalq tapmaq mümkün deyil ki, o xalqın mədəniyyətində din amili rol oynamasın. Çünki dinlər mövcud mədəniyyətlərin inkişafına mühüm təsir göstərərək onların yeni müstəvidə formalaşmasına təkan vermişdir. Yer üzünün sonuncu dini sayılan İslam dini də mövcud olduğu dövrdən indiyədək bərqərar olduğu coğrafi ərazilərdə müxtəlif xalqların tarixi inkişafına böyük təsir etmiş, aid olduğu xalqların dəyərləri ilə çuğlaşaraq onu daha da zənginləşdirmişdir. Müasir dövrdə mədəniyyətlər həm də mənsub olduğu xalqların dünyadakı yerini müəyyənləşdirir. Bu mənada, İslam mədəniyyəti məfhumu özündə böyük məna kəsb edir. Bəs İslam mədəniyyətinin mahiyyəti nədən ibarətdir?

Müasir dövrdə mədəniyyətlərarası dialoq, mədəni inteqrasiya ölkələrin və xalqların bir-birini daha yaxından tanımasına imkan verir. Bu mənada, mədəniyyət paytaxtları (“Avropa Mədəniyyətinin Paytaxtı”, “Ərəb Mədəniyyətinin Paytaxtı”, “Amerika Mədəniyyətinin Paytaxtı” və “İslam Mədəniyyətinin Paytaxtı”) layihələrinin həyata keçirilməsi milli, dini və bəşəri dəyərlərin bölüşdürülməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Təbii ki, mədəniyyət paytaxtı statusunu daşımaq hər hansı bir şəhərin mövcud potensialından çox asılıdır. Çünki həyata keçirilən layihələrin əsas məqsədi status qazanmış şəhərlərin tanıtma, təqdimetmə imkanlarının yetərli olmasına şərait yaratmalıdır. Məhz Qafqazın, eləcə də Şərqin ən qədim şəhərlərindən biri olan Naxçıvanın 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsi də bu potensialın mövcudluğundan irəli gəlir.

Qeyd edək ki, “İslam Mədəniyyətinin Paytaxtı” layihəsi haqqında ilk qərar İSESKO-nun təklifi ilə 2001-ci ilin sonlarında Qətərin paytaxtı Doha şəhərində keçirilən İslam ölkələrinin mədəniyyət nazirlərinin III konfransında qəbul edilmişdir. Bu sənədə əsasən İslam Mədəniyyətinin Paytaxtı İslam Əməkdaşlıq Təşkilatına (İslam Konfransı Təşkilatı) üzv olan ölkələrin şəhərləri arasından seçilir. Səudiyyə Ərəbistanının Məkkə şəhəri ilk İslam Mədəniyyəti Paytaxtı elan edilmişdi. Məkkədən sonra ərəb dünyasını, Asiya və Afrika regionlarını təmsil edən daha 30 şəhər İslam Mədəniyyətinin Paytaxtı olmalıdır. Bakı isə 2009-cu ildə bu tarixi sevinci yaşadı. Elə həmin ilin oktyabrında Bakıda keçirilən İslam konfransına üzv ölkələrin mədəniyyət nazirlərinin 6-cı toplantısı çərçivəsində Naxçıvan şəhəri 2018-ci ildə İslam Mədəniyyətinin Paytaxtı elan olunmuşdur.

Vurğulamaq lazımdır ki, Naxçıvan həm qədimliyinə, həm mədəni zənginliyinə, həm də yerləşdiyi coğrafi mövqeyinə görə strateji əhəmiyyət kəsb edir. Məhz bu səbəbdən Naxçıvan hər zaman region ölkələrinin diqqət mərkəzində olmuşdur. Dünyanın yenidən yaranış tarixini simvolizə edən Nuh Peyğəmbərin məzarüstü abidəsinin, adı müqəddəs “Qurani-Kərim”də çəkilən Əshabi-Kəhf mağarasının, Böyük Nuh Tufanından sonra Uca Yaradanın bəxş etdiyi bənzərsiz Duz dağlarının burada mövcudluğu Naxçıvanın yaşayış məskəni kimi dünya tarixində ilklərdən biri olduğunu göstərir. Saysız-hesabsız qədim yaşayış məskənləri – Gəmiqaya, Qazma, Oğlanqala, Gilançay, Kültəpə kimi abidələrlə yanaşı, çoxsaylı türk və İslam abidələrinin də varlığı Naxçıvan kimi həcmcə çox kiçik bir ərazidə necə böyük bir potensialın toplandığını özündə əks etdirir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***“Naxçıvan çox böyük tarixə malik olan diyardır. Naxçıvanın strateji əhəmiyyəti, tarixi, mədəniyyəti, tarixi abidələri bizim böyük dəyərimizdir, böyük sərvətimizdir”.***

Qeyd etmək lazımdır ki, türk-islam mədəniyyəti tarixində mühüm yerə sahib olan Naxçıvanda tarixi dəyərlərin, milli mədəniyyət nümunələrinin qorunması, yaşadılması və gələcək nəsillərə çatdırılması istiqamətində mühüm işlər görülmüşdür. Görülən işləri bir yazıya sığışdırmaq mümkün olmasa da, onu deyək ki, ötən dövrdə qədim diyarımızda mövcud olan məscid və imamzadələr, çoxsaylı pir və ziyarətgahlar, o cümlədən tarixi abidələr – türbələr, körpülər, hamamlar və digər bu kimi obyektlər əsaslı şəkildə təmir və bərpa olunaraq istifadəyə verilmişdir. ***“Mədəniyyəti inkişaf etdirmək milləti inkişaf etdirmək, xalqı sivilizasiyaya qovuşdurmaq, milli ruhu yaşatmaq deməkdir”*** fikrini öz fəaliyyətinin tərkib hissəsinə çevirmiş Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Naxçıvanın tarixi və mədəniyyətinin araşdırılması, öyrənilməsi və nəhayət, təbliğ edilməsi ilə bağlı həyata keçirdiyi tədbirlərin də əsas məqsədi bu potensialı tanıtmaq, təbliğ etməkdən ibarətdir. Bu mənada, Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı kimi qarşısında geniş imkanlar açılır. Bunu da qeyd etmək lazımdır ki, Naxçıvan ötən dövrdə bu mədəniyyət ilinə kifayət qədər ciddi hazırlaşıb. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 2 iyun tarixli Sərəncamı ilə Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə əlaqədar Təşkilat Komitəsi yaradılmış, komitənin 2016-cı il noyabrın 25-də Naxçıvan şəhərində keçirilən iclasında Tədbirlər Planı təsdiq olunmuş və icrasına başlanılmışdır. Tədbirlər Planına əsasən Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Rabitə və Yeni Texnologiyalar nazirlikləri tərəfindən “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018” rəsmi internet səhifəsi yaradılmışdır. Azərbaycan və ingilis dillərində hazırlanan “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018” rəsmi internet səhifəsi *(www.imp.nakhchivan.az)* 2018-ci il yanvarın 13-dən istifadəyə verilmişdir. 2018-ci ilin mart ayında isə “İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan – 2018” loqotipinin təqdimatı olmuşdur. Bundan əlavə, üzərində bu loqotipin əks olunduğu zərf və poçt markaları, suvenirlər, nəfis şəkildə qablaşdırılmış yerli məhsullar, muxtar respublika ərazisindəki İslam mədəniyyəti abidələri haqqında dəqiq məlumatların toplanıldığı, Azərbaycan və ingilis dillərində nəşr olunan kitab və bukletlər də Naxçıvanın hərtərəfli təbliğatında mühüm rol oynayacaqdır.

Bir neçə gün bundan əvvəl – iyunun 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin iclası olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin sədri cənab Vasif Talıbov, Azərbaycan Respublikasının mədəniyyət naziri, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsi sədrinin müavini Əbülfəs Qarayev və Təşkilat Komitəsinin üzvləri Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı seçilməsi ilə bağlı görülən işləri əks etdirən sərgiyə baxmışlar. Sərgidə “İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan – 2018” gümüşdən hazırlanmış loqotipi, üzərində loqotip əks olunmuş döş nişanları, zərflər, poçt markaları, “Naxçıvanın türk-islam mədəniyyəti abidələri: tarixdə və günümüzdə” beynəlxalq konfransının materialları, “Naxçıvan: türk-islam mədəniyyəti abidələri”, “İslamda müdrik kəlamlar”, “Naxçıvan türbələri”, “Naxçıvan hamamları”, “Naxçıvan buzxanaları”, “Qədim və müasir Naxçıvan” kitabları, “İslam mədəniyyətinin paytaxtı Naxçıvan – 2018” loqotipinin tanıtım videoçarxı, “Naxçıvan: türk-islam mədəniyyəti abidələri” televiziya filmi, Naxçıvandakı türk-islam mədəniyyəti abidələrinin əks olunduğu suvenirlər, həmçinin üzərində loqo olan xalça, duzdan, muncuqdan, gipsdən, misdən və dəridən hazırlanmış əl işləri, müxtəlif aksesuarlar, eləcə də “İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan – 2018” loqosunun əks olunduğu yerli məhsullar nümayiş etdirilmişdir.

Onu da qeyd edək ki, iyunun 20-də Naxçıvan Dövlət Musiqili Dram Teatrında Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsi ilə bağlı açılış tədbiri keçiriləcəkdir. Bununla bağlı Tədbirlər Planına uyğun olaraq müvafiq hazırlıq işləri görülür.

Artıq bir neçə gündən sonra Naxçıvan şəhəri İslam Konfransı Təşkilatına üzv olan dövlətlərin nümayəndələrini qəbul edəcək. Mədəni-kütləvi tədbirlərdə iştirak edəcək qonaqlar Naxçıvanın tarixi və mədəniyyət abidələri ilə də tanış olacaqlar.

***Bəli, bu ilin sonuna kimi bütün İslam dünyasının gözü Naxçıvanda olacaq. Şərq-Qərb sivilizasiya dəhlizinin kəsişməsində yerləşən bu qədim Azərbaycan şəhəri İslam ölkələrinin kütləvi informasiya vasitələrində təbliğ ediləcək, uzaq-yaxın ölkələrdə tanıdılacaq. Mürəkkəb geosiyasi proseslərin cərəyan etdiyi, ixtilaf və toqquşmaların yaşandığı həyatımızda insanlar dünyaya, həm də islami və bəşəri dəyərlərin qorunduğu Naxçıvan adlı sabitlik “pəncərəsi”ndən baxacaqlar.***

✍ **Səbuhi HƏSƏNOV**

Təhsil millətin gələcəyidir

# Müasir təhsil ocaqları insan kapitalının formalaşmasına xidmət edir



**B*u il may ayının 16-sı Naxçıvan şəhər Qaraxanbəyli kənd sakinlərinin həyatında ən əlamətdar və yaddaqalan gün kimi tarixə düşdü. Həmin gün sakinlərin yaşadığı böyük sevinci sözlə ifadə etmək mümkün deyildi. Bu sevincdən ən böyük pay isə kənd məktəbinin müəllim və şagirdlərinə düşmüşdü. Ölkə Prezidenti cənab İlham Əliyevin muxtar respublikaya səfəri çərçivəsində kənddə müasir tələblərə cavab verən 6 nömrəli tam orta məktəbin açılışı oldu. Mərasimdə uşaqların sevincini bölüşməyə ölkə başçısı və muxtar respublika rəhbəri də gəldi, kənd sakinlərini, eləcə də məktəbliləri təbrik edib, pedaqoji kollektivə öz ürək sözlərini və tövsiyələrini çatdırdılar. Həmin gün valideynlər əmin oldular ki, uşaqları üçün yeni üfüqlər açılıb, onlar artıq hər cür şəraitə malik müasir binada təhsil alacaqlar.***

Müəllim və şagirdlər üçün yaradılan şəraitlə tanış olmaq və məktəbin fəaliyyəti haqqında məlumat almaq üçün ötən günlərdə adıçəkilən təhsil ocağına yollandıq. Əvvəllər kəndə yararsız, tozlu-torpaqlı yollarla gedirdik. Bu gün isə təmir edilmiş, gözoxşayan yollardan bəlli idi ki, əksər yaşayış məntəqələrimizi ağuşuna alan abadlıq, quruculuq işləri bu kənddə də həyata keçirilib. Burada müasir infrastrukturun yaradılması, kənd və xidmət mərkəzlərinin istifadəyə verilməsi deyilənləri təsdiqləyir.

Budur, artıq bəhs olunan ünvandayıq. Təhsil ocağı haqqında ilk təəssüratımız məktəbin həyətində oynayan uşaqların şaqraq gülüşlərindən, onlara düzgün təlim-tərbiyə verən müəllimlərin çöhrəsində görünən təbəssümdən yaranır. Tənəffüs olduğundan uşaqların bir qismi məktəbin həyətində idman qurğularının quraşdırıldığı əraziyə toplanmışdı.

Məktəbin direktoru Samirə Abdullayeva məlumat verərək qeyd edir ki, bu təhsil müəssisəsi ötən əsrin 30-cu illərində ibtidai məktəb kimi fəaliyyətə başlayıb. 2009-cu ildə Qaraxanbəyli kəndi Naxçıvan şəhərinin tərkibinə daxil edildikdən sonra müəssisə Validə Hüseynova adına 6 nömrəli tam orta məktəb kimi fəaliyyətini davam etdirir.

Söhbətə qoşulan məktəbin dərs hissə müdiri Azad Şirzadov təhsil ocağının 90-cı illərdəki acınacaqlı vəziyyətini yada salır. Deyir ki, ozamankı köhnə binada dərs keçdiyim günlər yaddaşımdan silinməyib. Şagirdlər tozlu-torpaqlı, yarıqaranlıq siniflərdə dərs keçirdilər. Dam örtüyünün yararsız olması qar, yağış yağanda vəziyyəti lap dözülməz hala gətirirdi. 2002-ci ildən məktəb yeni binada fəaliyyət göstərsə də, həmin binada da tədris şəraiti indiki qədər deyildi. Muxtar respublikamızda təhsil sahəsinə artan diqqət sayəsində bu məktəbə də yeni həyat bəxş edildi. İndi hərtərəfli şəraitə malik geniş, işıqlı siniflərdə dərs keçirik. Daha qış aylarındakı şaxta, çovğun bizi qorxutmayacaq, isti otaqlarda rahat dərs keçə biləcəyik. Yaradılan şərait bir pedaqoq kimi mənim ürəyimcədir.

Öyrənirik ki, 3 mərtəbəli 480 şagird yerlik yeni məktəb binasında iki kompüter otağı, 3 elektron lövhəli sinif, fizika, kimya və biologiya laboratoriyaları, 2 şahmat sinfi, hərbi kabinə, 24 sinif və müəllimlər otaqları və idman zalı var. Elektron lövhəli siniflər keçilən dərslərin əyaniliyini təmin edərək şagirdlərin biliklərə dərindən yiyələnmələrinə imkan yaradır. Belə ki, həmin siniflərdə təşkil edilən dərslərdə şagirdlər videogörüntülər vasitəsilə istənilən kimyəvi reaksiyanı, fiziki və bioloji prosesləri izahlı şəkildə öyrənə bilirlər. Elektron lövhənin köməkliyi ilə müəllim və şagirdlər interaktiv dərslərə qatılırlar. Məktəbdə şagirdlər arasında rəqabət hissini artırmaq, onlara keçilən dərsləri dərindən aşılamaq üçün mütəmadi bilik yarışları, müsabiqələr, viktorinalar təşkil olunur. Burada 40 kompüter quraşdırılıb və internetə qoşulub. İndi bu texnologiya sayəsində şagirdlər dünyanın istənilən nöqtəsi ilə əlaqə yarada, lazımi məlumatı rahat şəkildə əldə edə bilərlər.



Geniş idman zalında şagirdlər fiziki hazırlıqlarını, müasir şahmat sinfində isə zehni biliklərini artırırlar. Məktəbdə gənclərin çağırışaqədərki hazırlığı fənninin öyrənilməsinə xüsusi diqqət yetirilir. Hərbi rəhbər Mirqafar Seyidov deyir ki, hərbi kabinədə elektron lövhənin quraşdırılması dərsin daha əhatəli və məzmunlu təşkilinə imkan verir. Bundan başqa, şagirdlər hərbi hissələrə aparılır, silahların sökülüb-yığılması qaydalarını öyrənirlər. Həmçinin keçirilən hərbi-idman oyunlarında qazanılan uğurlar da yüksək tədrisin nəticəsidir. Aprelin 24-də məktəb növbəti belə uğura imza atıb. Belə ki, Naxçıvan şəhərinin ümumtəhsil müəssisələri arasında təşkil olunan "Sərhəd" hərbi-idman oyununda məktəbin komandası 3-cü yeri tutub.

Tanınmış ingilis filosofu Frensis Bekon deyirdi ki, kitab zamanın dalğaları üzərində səyahət edən və öz qiymətli yükünü ehtiyatla nəsillərdən nəsillərə yetirən fikir gəmisidir. Bu gün doğma Naxçıvanımızda mütaliədən bəhrələnmək kimi mənəvi vəzifə gənclərin üzərinə düşür. Muxtar respublika rəhbərinin "Oxunması zəruri olan kitablar haqqında" Sərəncamı bu işdə gənclərə göstərilən ən düzgün yoldur. Məktəbin kitabxanasında 3139 bədii ədəbiyyat və 3319 dərslik olmaqla, ümumilikdə, 6 min 458 kitab şagirdlərin istifadəsinə verilib. Burada oxunması zəruri olan kitablardan ibarət guşə yaradılıb, hər ayda bir dəfə keçirilən kitab müzakirəsi zamanı həmin bədii ədəbiyyatlara geniş yer verilir.

Təhsil ocağında 267 şagirdin təlim-tərbiyəsi ilə 50 müəllim məşğul olur. Həmin müəllimlərin əksəriyyəti orta təhsillərini bu məktəbdə alıblar. Onların işə zəhmətkeş yanaşması, şagirdlərə qayğıkeş münasibət göstərməsi sayəsində qazanılan uğurlar da ilbəil artır. Hər il keçirilən qəbul imtahanlarında şagirdlərin yüksək nəticələr əldə etməsi çəkilən zəhmətin bəhrəsidir. 2016-2017-ci tədris ili də, bu mənada, uğurlu olub. Belə ki, həmin tədris ilində məktəbi bitirən 15 məzundan 13-ü imtahanlarda iştirak edib. Abituriyentlərdən 9-u ölkənin qabaqcıl ali təhsil ocaqlarına qəbul olunub. Builki imtahanlarda da şagirdlərdən yüksək nəticələr gözlənilir. Artıq birinci mərhələsi başa çatan qəbul imtahanlarında məktəbin 8 məzunu keçid balını üstələyib, həmin abituriyentlərdən 1-i 500-700 intervalında bal toplayıb. Bundan başqa, Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən keçirilən fənn olimpiadalarında məktəbin 1 şagirdi uğurlu iştirak edərək bürünc medal qazanıb. Məktəbin təcrübəli müəllimlərindən Hökümə Mahmudova, Sevda Seyidova və Gültac Əmirova dedilər ki, yaxşı müəllim şagirdə elm öyrətməklə yanaşı, onu Vətəninə, dövlətinə layiq vətəndaş kimi hazırlamalıdır. Bu gün ən müasir şəraitə malik siniflərdə, ən yeni tədris metodlarından istifadə etməklə dərs keçmək imkanımız var. Biz də yaradılan imkanlardan düzgün bəhrələnib, sağlam düşüncəyə malik gənclər yetişdirməliyik.

Bu gün Qaraxanbəyli kəndindəki məktəbin müəllim və şagirdlərinə dövlətimiz tərəfindən müasir bina ərməğan olunub. Pedaqoji kollektiv çalışır ki, dövlətimizin bu qayğısına əməli işləri ilə cavab versin. İnanırıq ki, yaradılan şərait yeni-yeni uğurlara aparacaq və bu təhsil ocağı gələcəkdə ölkəmizin qabaqcıl məktəbləri sırasında yer alacaq. Ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Təhsil hər bir dövlətin gələcəyidir. Biz fəxr edirik ki, Azərbaycanda savadlılıq təxminən 100 faizdir. Bu, çox böyük göstəricidir. Elə etməliyik ki, bütün uşaqlar savadlı, bilikli olsunlar, gələcəkdə özləri üçün gözəl həyat qura bilsinlər, dövlətimiz üçün dəyərli vətəndaşlar olsunlar. Ona görə təhsilin keyfiyyəti indi ön plana çıxır. Bu istiqamətdə də islahatlar aparılır. Eyni zamanda müəllimlərin fəaliyyətini stimullaşdırmaq üçün islahatlar aparılır. Müəllimlərin əməkhaqları qaldırılır. Əlbəttə ki, hər bir məktəbin əsas qiyməti onun fəaliyyətinin göstəriciləri ilə bağlıdır. Hər bir məktəb çalışmalıdır ki, təhsilin səviyyəsi yüksək olsun".***

Qaraxanbəyli kənd 6 nömrəli tam orta məktəbin kollektivi də qarşıya qoyulan vəzifələri yüksək səviyyədə yerinə yetirmək üçün öz işini bu istiqamətdə qurmağa çalışır.

**Nail ƏSGƏROV**

# "Qurtuluşun zəfər günü" adlı tədbir keçirilib

Naxçıvan Dövlət Universitetində 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Sonra tədbiri giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov dahi rəhbər Heydər Əliyevin xilaskarlıq missiyasından danışıb. Rektor qeyd edib ki, bu günün mənası təkcə ölkənin xaos və anarxiyadan xilas edilməsi, xarici və daxili düşmənlərin Azərbaycanı parçalamaq, müstəqil dövlətimizi məhv etmək planlarının puça çıxarılması ilə məhdudlaşmır. Bu tarixi gün, eyni zamanda Azərbaycanın dünya birliyinə qovuşması, aparıcı dövlətlər tərəfindən tanınması, beynəlxalq aləmdə layiqli yerini tutması ilə səciyyələnir. O da vurğulanıb ki, bu gün ölkə başçısı cənab İlham Əliyev ümummilli liderin siyasi xəttini layiqincə davam etdirir.

"Ulu öndər Heydər Əliyevin Azərbaycanın milli dövlətçiliyində rolu və yeri" adlı çıxışında Azərbaycan tarixi kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Nadir Hüseynbəyli qeyd edib ki, hər bir xalqın tarixində onun müstəqillik, milli azadlıq uğrunda apardığı mübarizənin böyük rolu vardır. Müstəqilliyimizin əbədiliyinə isə 1993-cü ildə xalqın tələbi ilə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra nail olunub. Məhz ulu öndərin bu müdrik addımı nəticəsində Azərbaycan dövlətçiliyinə yönəlmiş qəsdlərin qarşısı alınıb.

Tədbir İncəsənət fakültəsi tələbələrinin ifasında konsert proqramı ilə davam etdirilib.

**Səadət ƏLİYEVA**

# İnşa yazı müsabiqəsinin qalibləri mükafatlandırılıb



***15 İyun – Milli Qurtuluş Günü münasibətilə muxtar respublikanın ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri və Heydər Əliyev adına Hərbi Liseyin kursantları arasında keçirilən inşa yazı müsabiqəsinin qalibləri müəyyən olunub.***

"Heydər Əliyev ideyalarında Qurtuluşa gedən yol" mövzusunda təşkil edilən müsabiqənin qaliblərinin mükafatlandırma mərasimi Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində keçirilib. Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu ilə birgə təşkil olunan tədbirdə muxtar respublikanın təhsil naziri Məmməd Qəribov qalibləri təbrik edib. Nazir bildirib ki, belə müsabiqələrin keçirilməsi ulu öndərimizə ümumxalq məhəbbətinin bariz nümunəsidir. İnşa yazı müsabiqəsi intellekt yarışı olmaqla yanaşı, həm də ictimai məzmun daşıyır. Çünki Naxçıvan məktəbliləri ulu öndərin zəngin siyasi irsini, ideyalarını mənimsəməklə vətənpərvərlik dərsi öyrənirlər.

Fondun icraçı direktoru Anar Babayev deyib ki, əsası ümummilli liderimiz tərəfindən qoyulan gənclər siyasəti bu gün uğurla həyata keçirilir, gənclərin milli ruhda tərbiyəsi diqqət mərkəzində saxlanılır. Onların ictimai-siyasi, iqtisadi və mədəni həyatda fəal iştirakı, sosial problemlərinin həlli, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramlarının qəbul olunması, gənc istedadlara dövlət qayğısının artırılması diqqət mərkəzində saxlanılır. Gənclərin elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə irəli çəkilməsi və xidmətlərinin qiymətləndirilməsi, bütövlükdə, muxtar respublikada bu istiqamətdə həyata keçirilən tədbirlərin əsasını təşkil edir.

Sonra inşa yazı müsabiqəsinin qalibləri diplom və qiymətli hədiyyələrlə mükafatlandırılıb.

**Xəbərlər şöbəsi**

# 22 nəfər gömrük orqanlarında işə qəbul olunub

Muxtar respublika gömrük orqanlarında vakant vəzifələrin tutulması üçün 25 yanvar 2018-ci il tarixdə elan olunmuş müsabiqəyə yekun vurulub. "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamə və Ali Məclis Sədrinin 2010-cu il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının gömrük orqanlarına xidmətə qəbul ilə əlaqədar müsabiqənin keçirilməsi Qaydası" əsasında təşkil edilən müsabiqə iki mərhələdən – test imtahanından və müsahibədən ibarət olub. 115 namizədin iştirakı ilə mart ayının 29 və 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın Test mərkəzində təşkil olunan imtahanda keçid balını toplayanlar müsabiqənin müsahibə mərhələsinə buraxılıblar.

Test imtahanından müvəffəqiyyət qazanan namizədlərin gömrük orqanlarında işləmək üçün tələb edilən keyfiyyətlərə malik olmasını müəyyənləşdirmək məqsədilə keçirilən müsahibədə əvvəlcə namizədlərin xarici dil və kompüter bilikləri, o cümlədən fiziki hazırlıq səviyyəsi yoxlanılaraq qiymətləndirilib. Fərdi qaydada aparılan söhbətlərdə isə namizədlərin Konstitusiyaya, ölkə Prezidentinin fərman və sərəncamlarına, Azərbaycan Respublikasının qanunvericiliyinə dair biliyinin, gömrük işi və iqtisadi siyasətə bağlı normativ-hüquqi aktların tətbiq edilməsi sahəsində bilik və bacarığının, həmçinin işgüzarlıq səviyyəsinin, mənəvi keyfiyyətlərinin, xidmətə, xidməti intizama, etik davranış və məsuliyyət prinsiplərinə münasibətlərinin müəyyən edilməsi üçün müvafiq suallar verilib.

Test imtahanından və müsahibədən müvəffəqiyyətlə çıxmış 26 namizəd müsabiqədən keçmiş hesab edilib. Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müvafiq əmrləri ilə 22 namizəd gömrük orqanlarındakı vakant yerlərə işə qəbul olunub, 4 namizəd isə kadr ehtiyatına alınıb.

İşə qəbul olunmuş gənc əməkdaşlara 6 ay sınaq müddəti müəyyən edilib və hamilər təyin olunub. Onlara Dövlət Gömrük Komitəsinin informasiya sistemində elektron imzadan istifadə etmək üçün elektron imza kartları verilib.

Muxtar respublika gömrük orqanlarına yeni işə qəbul olunmuş əməkdaşlar, həmçinin peşə hazırlığı məşğələlərinə cəlb olunub. Məşğələlərin tədris proqramında gömrük əməkdaşlarının iş vaxtı və işdən kənar etik davranış qaydaları və gömrük orqanlarında məlumat təhlükəsizliyinin təmin edilməsi, gömrük xidmətinin korporativ şəbəkəsindən və Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemindən (VAİS), gömrük bəyannamələrinin rəsmiləşdirilməsi qaydalarının tədrisi və gömrük orqanlarında tətbiq olunan proqram təminatlarından istifadə ilə bağlı praktik seminarın təşkili nəzərdə tutulub.

**Rahil TAHİRLİ**
*Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş inspektoru*

## Sosial şəbəkələrin yaratdığı təhlükələrdən qorunaq

***Bu gün dünyanın müxtəlif yerlərindən minlərlə internet istifadəçisi könüllü olaraq öz vaxtlarını, təcrübə və biliklərini sosial şəbəkələrdə informasiya mübadiləsinə sərf edirlər. Araşdırmalar göstərdi ki, sosial şəbəkələr çox nəhəng bir informasiya resursudur ki, bu layihələrə dünyanın müxtəlif dillərində külli miqdarda məlumatlar daxil edilir. İnternet istifadəçilərinin çox hissəsi bu informasiyalardan yararlanırlar. Bu texnologiyadan istifadə müəllimlərin pedaqoji peşəkarlıqlarının artırılmasında mühüm rol oynayır. “XXI əsrin şəbəkəsi” adlanan sosial şəbəkələr əsasında qurulan virtual cəmiyyətlər isə, ilk növbədə, virtual bilik bazasıdır.***



Ümumilikdə, sosial şəbəkələrin müsbət cəhətləri olduğu kimi, bəzi mənfi cəhətləri də vardır. Həmin mənbələrdən düzgün istifadə olunmaması nəticəsində insanlarda müəyyən mənada bu şəbəkələrdən asılılıq yarana bilər. Bunun nəticəsində istifadəçi də tez-tez öz hesabına daxil olmaq, mesaj qutusunu yoxlamaq zərurəti yaradır. Bu isə, öz növbəsində, insanın fikrini öz işlərinə cəmləməsinə mane olur və həddindən artıq çox vaxt aparır. Bunun da həm psixoloji, həm də fizioloji fəsadları vardır. Eyni zamanda kompüterin müxtəlif ziyankar proqramlarla yoluxması baş verə bilər ki, bu halda həm kompüterin, həm də sizin şəxsi məlumatlarınızın və şəxsi hesabınızın təhlükəsizliyinə xələl gəlmiş olar.

“Facebook”, “İnstagram”, “Twitter” və sair sosial şəbəkələr istifadəçilərin şəxsi hesablarının qorunması üçün elə də böyük tədbirlər görmürlər. Bu gün hakerlər çox asanlıqla şəxslərin sosial şəbəkə hesablarını ələ keçirə bilirlər. 50 milyondan çox “Facebook” istifadəçisinin hesabından məlumatların oğurlanması da bunu sübut edir.

Son günlərdə sosial şəbəkələr və mesajlaşma tətbiqləri vasitəsilə məşhur şirkətlərin adından vədverici mesajlar insanlar arasında yayılmağa başlayıb. Belə ki, bədniyyətli qruplar öncə kampaniya təşkil edəcəyi şirkətin əsas domeninə oxşar yeni domen alır. Adətən, belə domenlərin alışında gündəlik istifadəmizdə olmayan və gözlərimizin görməyə alışmadığı xüsusi simvollardan istifadə olunur ki, ilk baxışdan domen əslisi ilə eynilik təşkil etsin. Daha sonra həmin domenə əsl domendəki məzmunun oxşarı yüklənir ki, göndərilən linkin ziyarətçiləri heç nədən şübhələnmədən əməliyyatlarını sona çatdırsınlar. Haker qruplar tərəfindən təşkil edilən belə “fişinq” hücumlar, adətən, məşhur şirkətlərin endirim və ya hədiyyə kampaniyaları adı altında istifadəçilərə “fişinq” link göndərməklə həyata keçirilir. Belə vədverici kampaniyalarda tələblərdən biri də, adətən, istifadəçinin özü ilə bərabər bir neçə nəfəri də cəlb etməsi tələbidir. Bu da həmin “fişinq” linkinin sosial şəbəkə istifadəçiləri arasında sürətli yayılmasına gətirib çıxarır. Bu şəbəkələrdə “uşağım xəstədir” kimi paylaşımların bir çoxunun fırıldaqçılar tərəfindən edildiyi üzə çıxıb. Belə ki, onlar bu cür elanları paylaşaraq geyim, qida məhsulları istehsalçılarından reklam alırlar. “Facebook”, “İnstagram”, “Twitter” kimi sosial şəbəkələrdə tez-tez rast gəldiyimiz bu elanlarda daha çox insanın görməsi üçün onun paylaşılması xahiş edilir. Bununla da, səhifəni izləyənlərin sayını qısa zamanda artırmış olurlar. Daha sonra həmin səhifələrin adını dəyişərək qida, geyim reklamları paylaşmağa başlayırlar. Bir çox hallarda elanda verilən nömrələr səhv olur, ya da zəng etdiyinizdə avtomatik olaraq həmin nömrənin balansına ödəniş etmiş olursunuz.

Bundan başqa, “Facebook”da yayılmış yeni virus bir çoxlarını narahat etməyə başlayıb. Belə ki, bu virus vasitəsilə hakerlər həm sizin şəxsi məlumatlarınızı əldə edir, həm də dostluğunuzdakı şəxslərə viruslu mesajlar göndərə bilirlər. Bu virusu e-mail vasitəsilə və ya bildiriş şəklində ala bilərsiniz. İlk baxışda “Facebook” yenilənməsinə oxşayan məktub sizin şəxsi məlumatlarınızı ələ keçirmək üçün qurulmuş tələdir. Belə ki, sizdən e-mail adresiniz və ya telefon nömrəniz, həmçinin şifrə və doğum tarixiniz haqda məlumatı daxil etməyiniz xahiş olunur. Bununla şəxsi məlumatlarınızın daha təhlükəsiz hala gətirilməsi haqda məlumat verilir. Siz məlumatı daxil etdiyiniz halda hesabınız virusa yoluxacaq. Mümkün qədər bilmədiyiniz mənbədən və ya şübhə yaradan mesajlardan uzaq durun və öz şəxsi məlumatlarınızı əmin olmadığınız qaynaqlarda paylaşmayın.

Sosial şəbəkələrdə uşaq və yeniyetmələr üçün zərərli informasiyalar çox olduğuna görə valideynlər övladlarının mobil telefon və planşetlərdən istifadə etməsinə icazə verməməli, mütləq onlara nəzarət etməlidir.

Ölkəmizdə, eləcə də muxtar respublikamızda istifadəçilər təhlükəsizlik qaydalarını bilməli, bu qaydalara əməl etməli, ayrılıqda özünün informasiya təhlükəsizliyinə diqqət yetirməlidir. Bununla yanaşı, qlobal resursların da güvənliyindən çox şey asılıdır.

Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Mərkəzi tərəfindən bununla bağlı daim maarifləndirmə işləri aparılır, metodik informasiya dəstəyi hazırlanaraq problemlərin izahı verilir və çıxış yolları göstərilir.

***Naxçıvan Muxtar Respublikası***
***Rabitə və Yeni Texnologiyalar Nazirliyi yanında***
***Elektron Təhlükəsizlik Mərkəzi***

## Humanitar aksiya təşkil edilib



Muxtar respublikada müasir tibb ocaqlarının tikilib istifadəyə verilməsi, insanların sağlamlığının yaxşılaşdırılması, əhalinin keyfiyyətli tibbi xidmətlə təmin edilməsi diqqət mərkəzində saxlanılır. Bununla yanaşı, yüksəkixtisaslı həkim briqadalarının mütəmadi olaraq rayonlarda humanitar tibbi aksiyalar keçirməsi aztəminatlı ailələrdən olan xəstələrin müayinə və müalicəsinə hərtərəfli şərait yaradır.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim və tibb işçiləri rayon mərkəzlərinin, qəsəbə və kəndlərin, eləcə də ucqar sərhəd və dağ yaşayış məntəqələrinin səhiyyə müəssisələrində yaradılan imkanlar hesabına əhalinin tibbi müayinəsini və cərrahi əməliyyatları uğurla aparırlar.

Həmin tədbirlərin davamı olaraq ötən şənbə Ordubad Rayon Mərkəzi Xəstəxanasında növbəti humanitar tibbi aksiya keçirilib. Bunun üçün əvvəlcədən hazırlıq işləri görülüb, müayinə və müalicə olunacaq xəstələr xəstəxanaya dəvət olunublar.

Həkim briqadası aksiya müddətində 77 nəfəri ambulator müayinə edib. Müayinələr cərrah, oftalmoloq, uroloq, ultrasəslə müayinə, terapevt, nevropatoloq və LOR həkimlər tərəfindən aparılıb. Müayinə olunanlara müvafiq tövsiyələr verilib. 32 nəfər isə ətraflı müayinə üçün Naxçıvan Muxtar Respublika Xəstəxanasına dəvət edilib.

Əndəmic kənd sakini Sədaqət Cəfərovanın iki övladı ambulator tibbi müayinələrlə əhatə olunub. Valideyn övladlarının başqa yerlərə getmədən, ərazidə yerləşən səhiyyə müəssisəsində müayinə olunmasına görə minnətdarlıq edib, bütün bunları aztəminatlı ailələrdən olan xəstələrə yönəldilmiş xüsusi sağlamlıq layihələrinin uğurlu icrası kimi dəyərləndirib.

***Naxçıvan Muxtar Respublikası***
***Səhiyyə Nazirliyinin***
***mətbuat xidməti***

## Dəri əlcək sahibləri şəhər birinciliyində mübarizə aparıblar



***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində 15 İyun – Milli Qurtuluş Günü münasibətilə yeniyetmə və gənclər arasında boks üzrə Naxçıvan şəhər açıq birinciliyi keçirilib.***

Naxçıvan Muxtar Respublikası Boks Federasiyası, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi və Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə keçirilən yarışda şəhər idmançıları ilə yanaşı, Kəngərli, Culfa və Şərur rayonlarının yetirmələri də mübarizə aparıblar. Beynəlxalq Boks Federasiyasının qaydalarına uyğun keçirilən birincilikdə 26 çəki dərəcəsində 70 dəri əlcək sahibi rinqə çıxıb.

Yekun nəticəyə əsasən Məhəmməd Əliyev (26 kiloqram, Kəngərli), Əli Seyidov (28 kiloqram, Naxçıvan), Kamran Rəsulov (29 kiloqram, Naxçıvan), Ucar Musayev (30 kiloqram, Kəngərli), Turan Kərimsoy (31 kiloqram, Naxçıvan), Sinan Əliyev (32 kiloqram, Kəngərli), Abbasəli Nəcəfli (33 kiloqram, Naxçıvan), Ziya Dünyamalıyev (34 kiloqram, Naxçıvan), Ayxan Heydərov (35 kiloqram, Naxçıvan), Ramil Babayev (36 kiloqram, Kəngərli), Alişan İsmayılov (38 kiloqram, Şərur), Miryusif Seyidov (40 kiloqram, Şərur), Məhəmməd Seyidov (42 kiloqram, Şərur), Hüseyn Hüseynov (44 kiloqram, Culfa), Əli Seyidov (45 kiloqram, Kəngərli), Teymur Abbasov (46 kiloqram, Şərur), Mustafa Bəşirov (48 kiloqram, Şərur), Nizami Novruzov (50 kiloqram, Naxçıvan), Ələsgər Ələkbərov (52 kiloqram, Naxçıvan), Hüseyn Hüseynov (54 kiloqram, Naxçıvan), Tural Süleymanov (57 kiloqram, Naxçıvan), Həsən Hüseynov (58 kiloqram, Naxçıvan), Nadir Cəfərov (60 kiloqram, Naxçıvan), Kamran Allahverdiyev (62 kiloqram, Naxçıvan) və Sunay Orucov (63 kiloqram, Naxçıvan), qızlar arasında isə Duyğu Hüseynova (46 kiloqram, Naxçıvan) bütün rəqiblərini məğlub edərək yarışın qalibi olublar.

Sonda hər çəki dərəcəsində yer tutan idmançılar diplomlarla mükafatlandırılıblar.

## Velosiped üzrə yarış keçirilib



Şahbuz Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatının Gənclər Birliyi tərəfindən 15 İyun – Milli Qurtuluş Günü münasibəti ilə məktəblilər arasında velosiped yarışı keçirilib.

Rayon mərkəzinin “Batabat bulağı” – “Bayraq meydanı” arasında keçirilən yarışda 30-dan çox idmançı mübarizə aparıb. Velosipedçilər 3000 metr məsafədə qüvvələrini sınayıblar.

Yekun nəticəyə əsasən Turqay Musayev, Yaşar Abdullazadə və Bəhruz Həsənli finiş xəttini ilk üç pillədə başa vurublar.

Sonda qalib və fərqlənən idmançılara təşkilatçıların diplom və hədiyyələri təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası***
***Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## “Lira” musiqili-intellektual oyununun final mərhələsi başa çatıb

*Naxçıvan şəhərindəki Gənclər Mərkəzində Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin şagirdləri arasında “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018” devizi altında keçirilən “Lira” musiqili-intellektual oyununun final mərhələsi olub.*

Final mərhələsində 4 komanda iştirak edib. Sonra oyunda yarışacaq komandalar “Simayi-Şəms” (Naxçıvan şəhər S.Rəcəbov adına 3 nömrəli Uşaq Musiqi Məktəbi), “Rast” (Şərur Rayon Çərçiboğan Kənd Uşaq Musiqi Məktəbi), “Əlincə” (Culfa Rayon Bənəniyar Kənd Uşaq Musiqi Məktəbi), “Aksent” (Ordubad Rayon Vənənd Kənd Uşaq Musiqi Məktəbi) iştirakçılara təqdim edilib.

Oyun hər biri 5 nəfərdən təşkil edilən 4 komanda arasında keçirilib və 3 mərhələdən ibarət olub. I mərhələdə şagirdlərə görkəmli bəstəkarların həyat və yaradıcılığı ilə bağlı, II mərhələdə musiqi əsərlərini dinləmək yolu ilə təyinetmə formatında və III mərhələdə isə ümumi musiqi dünyagörüşünə dair suallar səsləndirilib. Hər sualın düzgün cavabı 100 balla qiymətləndirilib və sonda ən yüksək bal toplamış komanda oyunun qalibi olub, digər yüksək oyun nümayiş etdirən komandalar isə müvafiq olaraq II, III və IV yerlərə layiq görülüblər.

Maraqlı və gərgin keçən oyunun final mərhələsində musiqi məktəblərinin şagirdləri bəstəkarlarla bağlı sualları cavablandırmaqda fəallıq göstəriblər.

Bütün suallar cavablandırıldıqdan sonra ən yüksək bal toplamış komandalar mükafatlandırılıblar. “Simayi-Şəms” I, “Rast” II, “Əlincə” III dərəcəli diplomlarla və “Aksent” komandası isə diplomla mükafatlandırılıb.

***Naxçıvan Dövlət Uşaq Teatrında Babək Rayon Xalq Teatrının yazıçı İsi Məlikzadənin “Subaylarınızdan görəsiniz” komediyası əsasında hazırlanmış tamaşası şəhər sakinlərinə təqdim olunub.***

## Babək Rayon Xalq Teatrının yeni tamaşası olub



Komediyada hadisələr iki ailə arasında baş verən məişət mövzusuna həsr edilib. Gözlənilməz gülüşdoğuran vəziyyətlər, komik dialoqlarla zəngin komediya tamaşaçıda xoş ovqat yaradır. Səhnə əsərindəki keçmişin qalıqları, köhnə düşüncələrlə yaşayan mənfi obrazlar sağlam gülüş yaratmaqla tamaşaçını düşündürür.

Tamaşanın quruluşçu rejissoru Yusif Əliyev və musiqi tərtibatçısı Cabir Məmmədovdur.

Xalq teatrının aktyorları – Azərbaycan Respublikasının Əməkdar artisti Vidadi Rəcəbli (Seyfi), Stella Babayeva (Səməni), İsmayıl Qurbanov (Əbdülhəsən), Elsevər Məmmədov (Əlipaşa), Nuray Mehdiyeva (Gülxanım) komik surətləri canlı və təbii təqdim edirlər. Xalq teatrının bu aktyorları yaşlı nəslin nümayəndələri olan personajları özünəməxsus xarakterik cizgilərlə yarada biliblər.

Əsərdəki başqa obraz və tipləri xalq teatrının aktyorları Rasim Qasımov (Fəqan), Ələkbər İsmayılov (Mayıl), Billur Vəliyeva (Qəndab), Xanım Nəsirova (Çiçək) canlandırırlar.

Tamaşa maraqla qarşılanıb.

**Əli RZAYEV**

***İtmişdir***

Naxçıvan şəhəri, Lermontov küçəsi, ev 64-də yaşamış Həsənova Rübabə Muxtar qızının adına olan 3063 inventar nömrəli texniki pasport və MH-0007869 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 435